"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 82(100)(091):821(100)(091)**

**AYGÜN ƏLİYEVA**
Gəncə Dövlət Universiteti
aygun.alizade1985@yahoo.fr

# FRANSADA MAARİFÇİLİK DÖVRÜ, FRANSIZ MAARİFÇİLƏRİ

*Məqalədə XVIII əsrdə maarifçilik ideyalarını inkişaf etdirən fransız maarifçi ədəbiyyatının tanınmış nümayəndələri Volter, Monteskyö, Russo və Didronun fəaliyyətindən bəhs olunur.*

*Maarifçilər insan cahilliyinin əsas səbəbini mövhumat, savadsızliq, elmsizlik, mədəniyyətsizlikdə görür, onun çarəsinin isə maarif, təhsil, elm, və fikir azadlığında olduğunu deyirdilər. Maarifçilər inanırdılar ki, insanların maarifləndirilməsi, əqlin inkişafı, cəmiyyətin həyatının bütün sahələrinin inkişafına əhəmiyyətli təsir göstərir. Məqalədə həmçinin, Avropa maarifçilik ideyalarını inkişaf etdirən fransız maarifçiləri-Volter, Monteskyö, Russo və Didro kimi ensiklopedist yazıçı-filosofların baxışları təhlil edilmiş, bu ideyaların cəmiyyətə və onun təbəqələrinə təsiri araşdırılmışdır.*

**Açar sözlər:** *cəmiyyət, din, savadsızlıq, fanatizm, mövhumat, maarifləndirmə, tərbiyə, söz azadlığı, ensiklopediya*

XVIII əsrin əvvəllərində Avropa ölkələrində elm və sivilizasiya sürətlə inkişaf etməyə başladı. Fransada və İngiltərədə baş verən burjua inqilabları cəmiyyətdə yeni düşüncə tərzi, mentalitet formalaşdırırdı. Artıq cəmiyyətdə bərabərlik adlanan yeni dünya quruculuğu prinsipləri yaranırdı. Bu prinsipləri yerinə yetirmək üçün isə dini fanatizmə son qoymaq, insanlara Tanrı qarşısında, həmçinin dövlət qanunları qarşısında bərabərlik, dünyanı dərk etməyin yeganə yolunun azad idrak olduğunu aşılamaq lazım idi. Beləliklə Avropada insanların təfəkkür tərzində, dini inanclarında və mədəni həyatında dönuş yaradan yeni bir mərhələ başladı.

XVII əsrdə İngiltərədə yaranan bu elmi inqilab daha sonra Almaniya, Fransa və Rusiyaya yayılsa da daha çox XVIII əsrdə Fransada çiçəklənməyə başladı. Elə buna görə də XVIII əsr Fransa tarixinə "Maarifləndirmə" əsri kimi daxil olmuşdur. Avropa tarixində və mədəniyyətinin inkişafında böyük rol oynayan maarifçilik dövrü həm də fəlsəfi fikirləri ilə də tarixdə iz qoydu.

Maarifçilik dövrü XIV-XV əsrlərin individualizm və adət ənənələrə tənqidi münasibət aşılayan humanizm cərəyanının davamı sayılsa da bu cərəyandan dini reformasiyalar və katolik kilsəsinin reaksiyaları ilə ayrılır.

Hələ Renessans dövründən başlayaraq insanı onun yaradılma səbəbi və cəmiyyətdə tutmalı olduğu yer və vəzifələr düşündürsə də bu suallara cavabı ancaq maarifləndirmə dövründə tapa bildi.

**Məqalə tarixçəsi:**
Göndərilib: 01.02.2019, qəbul edilib: 20.02.2019

Maarifçilik ideyaları dinlə elm arasında ziddiyyətli mübarizə başlatdı. Artıq həyat fəlsəfəsində ağlı, idrakı, xoşbəxtliyi, optimizmi seçən insan, Tanrı qarşısında özünü güclü hiss edir, elm, texnika, mədəniyyət və dini tolerantlıq sayəsində həyatda və cəmiyyətdə öz xoşbəxtliyini tapacağına inanırdı.

Fransada 1715-ci ildə, XIV Lüdovikin vəfatından və XV Lüdovikin hakimiyyətə gəlişindən sonra hakimiyyətin zəifliyindən, boşluğundan, ölkədə yaranan ictimayi-siyasi problemlərdən istifadə edən ədəbi məclislər, jurnallar, insanların gündəlik sıx toplandığı yerlərdə yeni yayılmış ideyaları müzakirə edir, bu haqda düşüncələrini paylaşırdılar. Ədəbiyyatla bağlı insanlar sarayı tərk edir, hər cür asılılıqdan uzaq, azad, müstəqil şəkildə yazmaq, dalğalanan yeni ideyalara qoşulmaq istəyirdilər. Bir sıra alim və filosoflar öz yaradıcılıqlarında fəlsəfi, sosialoji, siyasi məqamlara toxunur, mədəni və sosial inkişafın əsas yolunu maarifin yayılmasında görürdülər. Maarifçilik dövründə bu ideyaları daşıyan bütöv bir nəsil mütəfəkkir alimlər yarandı ki, onları “Maarifçilər” adlandirirdılar. Maarifçilər insan cahilliyinin əsas səbəbini mövhumat, savadsızliq, ədəbsizlik, mədəniyyətsizlikdə görür, onun çarəsinin isə maarif, təhsil, elm, fəlsəfə və fikir azadlığında olduğunu deyirdilər. Maarifçilər inanırdılar ki, insanların maarifləndirilməsi, əqlin inkişafı cəmiyyətin həyatının bütün sahələrinin inkişafına əhəmiyyətli təsir göstərir. Maarifçilərin əsas prinsipləri aşağıdakılar idi :

- insan əqlini və idrakını inkişaf etdirməklə həyatda təbii prinsiplərin, yəni təbii din və təbii hüquq prinsiplərinin mövcud olduğunu göstərmək
- feodal qaydalarının ləğvi, sahibkarlığın sərbəstliyi
- şəxsiyyət və cəmiyyətin kilsə və mütləqiyyət zülmündən azad edilməsi
- insanları kor edən dini fanatizmə son qoymaq
- ədalətsizlik və savadsızlığa qarşı mübarizə
- söz və fikir azadlığı, sosial bərabərlik

XVIII əsrdə maarifçilik ideyalarını inkişaf etdirən fransız maarifçi ədəbiyyatı nümayəndələri Volter, Monteskyö, Russo, Didro və başqaları olmuşdur.

Bunları birləşdirən ümumi cəhətlər o dövr Fransasının siyasi və sosial məsələlərinə tənqidi münasibət bildirən rasionalizmin tam hökmranlığı idi[1.] (s.227,228,229)

Maarifçi, publisist, dramaturq, filosof və tarixçi olan Fransua Mari Arua Volter maarifçilik hərəkatının əsas fiqurlarından olmuş və bu ideyaların yayılmasında müasirlərinə daha çox təsir göstərmişdir. Volter deist idi. O, belə deyirdi:

“Si Dieu n’existait pas, il faudrait l’inventer” tərcüməsi: “Əgər Allah olmasaydı, onu uydurmaq lazim gələrdi”[2]

Fəlsəfi əsər olan “Kandid” əsərində də qeyd etdiyi kimi, Volter Allaha inanır, lakin kilsənin, doqmaların rolunu inkar edir, dinin bir sistem və yaxud nəzəriyyə kimi öyrənilməsinə qarşı çıxırdı. O dində tolerantlıq və yaxud da təbiilik fikrini irəli sürür, Tanrıya inamın qəlbdən gəldiyinə inanırdı.

Volter fikirlərini ifadə etmək üçün bir çox ədəbi janrlara müraciət etmişdir. Onun faciə mövzusunda yazdığı “Edip” əsərində yazıçı Fransada dini fanatizmə , təhkimçiliyə, saray insanlarına qarşı mübarizə aparırdı.

Volter burjua ailəsində anadan olsa da sadə xalqı çox sevir, qayğısına qalır, onların söz azadlığı hüququna malik olmaq üçün çalışır və yumoristik şəkildə bir sitatında deyirdi : “Je ne suis pas d'accord avec ce que vous dites, mais je me battrai jusqu'à la mort pour que vous puissiez le dire-tərcüməsi: Mən sizin dediklərinizlə razı deyiləm, amma bunu deyə bilməyiniz üçün ölənə qədər mübarizə aparacam [3]

Yazıçı “Fəlsəfi məktublarında” xalqın qurtuluşunun inqilabda deyil, maariflənmiş kral və ya monarxın hakimiyyətə gəlişində görürdü. O Fransanın dövət quruluşunu kontitusiyalı monarxiya görmək istəyir, insanların hər cür imtiyazlardan uzaq, bərabərlik içərisində yaşamağını arzu edirdi.

Siyasi, sosial düşüncələri ilə maarifçilik hərəkatının əsas fiqurlarından biri də Şarl Lui de Monteskyödür. Monteskyö filosof, sosioloq, politoloq , tarixçi və yazıçı olmuşdur. O, Avropa ölkələrinə səyahət edərkən ölkələrin hakimiyyət quruluşlarını, idarəetmənin qanun və formalarını öyrənir, müşahidə edir, Fransada kral hakimiyyətinin özbaşınalığına son qoymaq üçün vasitələr axtarırdı. O insanların hüquq və bərabərliyini təmin etmək, özbaşınalığı aradan qaldırmaq üçün hakimiyyətin üç hissəyə-qanunverici, icraedici və məhkəmə hakimiyyətinə bölünməsini istəyirdi. Maarifçı feodal mütləqiyyət qanunlarını rədd edir, qanunverici hakimiyyətin xalqa məxsus olmasını istəyir, monarxiya quruluşunda isə xalqa, aristokratlara yer verilməsə bu quruluşun da sonunda despotizm olduğunu bəyan edirdi. Yazıçı “L`esprit des lois” “Qanunların ruhu haqqında” əsərində yazırdı: « le despotisme repose sur la crainte, la monarchie sur l'honneur, et la République sur la vertu. tərcüməsi: Despotizm qorxunun, monarxiya şərəfin, Respublika isə ləyaqətin üzərində qurulub.[4] ( 47, 48)

Monteskyö ictimai əxlaqın qorunmasında dinin böyük rolu olduğunu etiraf etsə də kilsəni kəskin tənqid edir və onun insanları düzgün maarifləndirmədiyini, ancaq dini fanatizm yaratdığını söyləyirdi.

Avropa səyahətindən öncə yazdığı “Les Letttes persans” “əsərini isə Monteskyö təsadüfi “Fars məktubları” adlandırmamışdır. Çünki bu dövrdə Şərq artıq inanılmaz dərəcədə maraq doğurur, öyrənilməyə başlanılırdı. Məktub formasında olan bu əsər iki iranlının Uzbe və Rikanın Avropaya, xüsusilə də Fransaya səyahəti və səyahət zamanı gördüklərini öz ölkəsinə məktub vasitəsilə çatdırmasından və eyni zamanda İranda cərəyan edən hadisələri isə öz dostlarından məktub formasında almasından bəhs edir. Fransada baş verən siyasi, sosial, iqtisadi, dini problemləri iki səyahətçinin dili ilə tənqid edən yazıçı əsəri kəskin satira janrında yazmışdır.[5] (s.86,87)

Filosof, yazıçı və musiqiçi olan Jan Jak Russo isə maarifçilər arasında öz müasir fikirləri ilə seçilir. O, təbii hüquq, təbii əxlaq və təbii din nəzəriyyələrini irəli sürərək insanın təbii halının hər şeydən qiymətli olduğu fikrində idi. Onun “Discours sur l`origine et les fondements de l`inégalité parmi les hommes” tərcüməsi: “İnsanlar arasında bərabərsizliyin səbəbləri və əmələ gəlməsi haqqında düşüncələr” əsərində o təbii, cəmiyyət təsirinə düşməmiş insan portretini yaradaraq onu müasir insandan daha güclü, daha aktiv hesab edir. Onun fikrincə insan pozulmuş cəmiyyətdən və mədəniyyətdən kənarda, təbiət qoynunda öz zəhməti ilə tərbiyələnməli, öz zəhmətinin məhsulu ilə

yaşamalı, azadlığı qiymətləndirməyi və müdafiə etməyi bacarmalıdır.[6] (s. 269) Russo qeyd edirdi ki, insan müasir cəmiyyətlə ayaqlaşmağa başladıqca onun qurbanına çevrilir. O, digər maarifçilərdən fərqli olaraq insanların zorla maariflənməsi fikriylə razılaşmır, onların azad doğulduğunu, bərabər hüquqlu, azad iradəyə sahib olduqlarını deyirdi. Volterdən fərqli olaraq Russonun siyasi idealı monarxiyanı tamamilə məhv etmək və respublika idarə üsulu, demokratik formada kəndlilərin, sənətkarların mənafeyini güdən xalq hakimiyyəti yaratmaq idi.

Fransız maarifçilərinin görkəmli nümayəndəsi olan Deni Didro maarifçilik hərəkatına öz töhfəsini bütün maarifçiləri də cəlb etdiyi 35 cilddən ibarət olan "L'Encyclopédie ou Dictionnaire raisonné des sciences, des arts et des métiers" adlı ensiklopediyası ilə verdi. Ensiklopediyanın ilk 17 cildinin hazırlamasında Didro, Alembert Volter, Monteskyö, Turqo və iki yüzdən artıq könüllü əməkdaş iştirak edirdi. Elm, incəsənət, sənət, tarix, iqtisadiyyat, əxlaq, texnika və digər bütün sahələri əhatə edən bu izahlı lüğət maarifçilik arzusu ilə tərəqqi edən cəmiyyətdə böyük nüfuza və diqqətə malik idi. Ensiklopediyanın bir çox məqalələri mütəq monarxiya, zadəgan sinfi, din, ədalətsizlik haqqında idi. İlk cilddə nəşr olunan "Autorité politique"tərcüməsi: "Siyasi hakimiyyət" başlıqlı məqaləsinə görə kral dairəsi və kilsə tərəfindən səs-küyə səbəb olan ensiklopediyanın iki cildinin çap olunmasına qadağa qoyulsa da Madame de Pompadur və digər nüfuzlu şəxslərin köməyilə ensiklopediya yenidən işıq üzü gördü.

Ensiklopediyanın tərtibçiləri onu xurafatı məhv edib, insan beyninə yol tapmaq üçün bir alət kimi görürdülər. Ensiklopediyada prostestantizmə tərəf çıxır, katolik ehkamlarını rədd edir, dini elm və tərbiyədə deyilmiş son söz kimi deyil, sadəcə fəlsəfənin bir qolu kimi gürürdülər. Didro özü isə Ensiklopediyanın məqsədini belə izah edirdi: " Le but d'une encyclopédie est de rassembler les connaissances éparses sur la surface de la terre ; d'en exposer le système général aux hommes avec qui nous vivons, et de le transmettre aux hommes qui viendront après nous ; que nos neveux devenant plus instruits, deviennent en même temps plus vertueux et plus heureux ; et que nous ne mourions pas sans avoir bien mérité du genre humain"[7](s.263) tərcüməsi: "Ensiklopediyanın əsas məqsədi yer üzərində səpələnmiş halda olan bilikləri bir yerə yığıb ümumi bir sistem halına salaraq bizimlə bir dövrdə yaşayan və bizdən sonra gələcək nəsillərə ötürməkdir ki, bizim nəvələrimiz ağıllı, eyni zamanda əxlaqlı və xoşbəxt olsunlar ki, biz də insanlıq adına layiq olmadan ölməyək".

Beləliklə, XVIII əsr marifçilik dövrü Fransada siyasi, iqtisadi, sosial, dini baxışları dəyişdirərək xalqı elmə, maarifə, təhsilə, söz və fikir azadlığına səsləyərək düşüncə tərzində yenilikçi ideyalar yaratdı. Volter, Monteskyö, Russo və Didro kimi ensiklopedist yazıçı-filosofların demokratiya haqqındakı yazdığı əsərlər sayəsində xalq, cəmiyyətin ziyalı təbəqəsi oyanır, öz hüquq və azdlıqlarını tələb edirdilər. Xalqın bu oyanışı tezliklə Fransada 1789-1799-cu illər inqilabının baş verməsinə səbəb oldu.

## ƏDƏBİYYAT

1.Claude Bouthier. Christian Morisset. Mille ans de la littérature française Nathan. Paris 2003.s.227,228,229
2.http://la-philosophie.com/citations-voltaire
3.http://la-philosophie.com/citations-voltaire
4.Marie Sylvie Séguin.Profil 139-140.Série Histoire Littéraire s. 47,48
5.Jean Balcou. Güenaelle Boucher. Le Didactique. La bibliothèque Gallimard. France 2002 s.86,87
6.Claude Bouthier .Christian Morisset. Mille ans de la littérature française Nathan. Paris 2003 s.269
7. Claude Bouthier .Christian Morisset. Mille ans de la littérature française Nathan. Paris 2003 p.263

## РЕЗЮМЕ

**АЮГУН АЛИЕВА**

**ЭПОХА ПРОСВЕЩЕНИЯ ВО ФРАНЦИИ. ФРАНЦУЗСКИЕ ПРОСВЕТИТЕЛИ**

В этой статье говорится о деятельности французских просветителей и о эпохе просвещения во Франции в XVIII веке. Видными деятелями развития идей просвещения в XVIII веке были французские писатели Вольтер, Монтескьё, Руссо, Дидро и другие. Общей и главной причиной, обьединившей их было критическое отношение к политическим и социальным вопросам, а также стремление к полному рационализму. Просветители видели основные причины невежества в неграмотности, в суеверии, в невоспитанности, а выход видели в просвещении, в образовании, в науке, в философии и в свободе мышления. Просветители верили что просвещение людей и их умов подтолкнёт к развитию всех сфер деятельности общества.

Под влиянием философских и психологических произведений о демократии таких писателей-энциклопедистов как Вольтер, Монтескьё, Руссо и Дидро, народ и передовые слои общества пробуждались и требовали свои права и свободы.

В этой статье были исследованы влияние рационалистических взглядов на общественно-политическую жизнь Франции и целиком общества, интеллигенции и простого народа, а также результаты этого влияния.

**Ключевые слова:** общество, религия, неграмотность, фанатизм, суеверие, просветитъ, взрастить, свобода слово, энциклопедия

## SUMMARY

**AYGUN ALIYEVA**

**AGE OF ENLIGHTENMENT IN FRANCE. FRENCH ENLIGHTENERS**

The article deals with the XIII century period, the period of enlightenment in the French litterature and the activities of French enlighteners. Walter,

Monteskio, Reusso, Didro and others were the main representatives of that period, who developed the ideas of enlightenment. The common feature concerning all of them was the domination of rationalism that expresses critical attitude to the political and social problems of France.

The enlighteners consider that the main features of the human ignorance were superstitions, illiteracy, rudeness and being uncultural. The enlighteners belive that enlightening people, developing people and mental activity, can influence all aspects of the society.

As a result of the philosophical, psychological works, developing the ideas of democracy, which were written by Walter, Monteskio, Russo and Didro, who were encyclopedic writers and philosophers, the whole nation, especially educated layers of the people actived and demanded their rights and freedom

**Key words:** society, religion, illiteracy, wickedness, fanaticism, secular, enlighten, upbringing, freedom of speech, encyclopedia

*(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)*